Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Həkimlikdən uşaq ədəbiyyatına, Xanımana Əlibəyli

**Xanımana Əlibəylinin anadan olmasının 100 illiyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı 2020**

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Həkimlikdən uşaq ədəbiyyatına, Xanımana Əlibəyli:** Xanımana Əlibəylinin anadan olmasının 100 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. N. Məcidova; S. Əhmədova, ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2020. – 36 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Tərtibçidən

Bu il uşaqlar üçün “Ulduzların nəğməsi”, “Mərcanqulu əfsanəsi”, “Sənubərin gözləri” kitablarında maraqlı şeirlər, nəğmələr qoyub getmiş sevimli şairimiz Xanımana Əlibəylinin 100 illik yubileyidir. Böyük bir yaradıcılıq yolu keçmiş Xanımana Əlibəylinin 100 illik yubiley tədbirlərinə həmişəki kimi kitabxanamız da qoşulacaq. Kitabxanada şairənin yaradıcılığı ilə bağlı müxtəlif tədbirlər keçiriləcək.

Erkən yaşlarında ədəbi fəaliyyətə başlayan Xanımana Əlibəylinin şeirlərinin dili sadə, qafiyələri musiqili olub dilə yatımlı olduğundan daha çox sevilir. Uşaq mahnılarından “Təzə il”, “Günəş olaram məndə”, “Pişik” və bir çox mahnıların sözlərinin müəllifidir. Onun şeirlərinə yazılmış bu mahnıları uşaqlar həvəslə oxuyurlar. Bu onu göstərir ki, şairə bu gün də unudulmayıb. Əsərləri müxtəlif xalqların dillərinə tərcümə edilib.

Şairənin yubileyi münasibətilə hazırladığımız bu vəsaitdə məqsədimiz onu sizə daha yaxından tanıtmaq və sevdirməkdir. Vəsait iki hissədən ibarətdir. Giriş hissə və keçiriləcək tədbirlər bölümündən ibarətdir. Girişdə şairin həyat və yaradıcılığı haqqında məlumat verilir, əsərlərindən söhbət açılır. İkinci hissədə isə şairənin yubileyi ilə bağlı kitabxanada keçirilməsi nəzərdə tutulan tədbirlər, təşkil olunacaq sərgilər, uşaqlara maraqlı olan viktorinalar verilmiş, sözlərinə yazılmış musiqili tədbirlərdən nümunələr göstərilmiş, kitablarının təbliği formalarından danışılmışdır. Şairənin xatirəsinə həsr edilmiş ədəbi-bədii gecənin ssenarisində isə Xanımana Əlibəyli haqqında sitatlar, qızı Gülər Abdullayevanın anası haqqında xatirələri, “Gözəllər gözəli” pyesi əsasında hazırlanmış səhnəcik, bədii kompozisiyalar verilmişdir.

## Həyat və yaradıcılığı

Bakı kəndlərindən olan Keşlədə ziyalı ailəsində 1920-ci ildə anadan olan Xanımana Əlibəyli orta təhsilini Bakıda 13 nömrəli məktəbdə almışdır.

Yaxşı oxuyub, müəllimlərinin sevimlisi olan Xanımananın müəllimi, görkəmli yazıçı kimi tanınan Məhərrəm Əlizadə şagirdinin istedadını görüb, onunla məşğul olmuş, ilk şeirlərinin kütləvi informasiya vasitələrinə yol açmasına, balaca şairənin Azərbaycan radiosu ilə çıxış etməsinə kömək etmişdir. Hələ məktəbdə oxuyarkən həkim olmaq arzusu ürəyində baş qaldıran 16 yaşlı Xanımana, məktəbi bitirdikdən sonra Bakı Dövlət Tibb İnstitutuna daxil olmuşdur. 1942-ci ildə Tibb institutunu bitirən gənc həkim təyinatla Masallı rayonuna göndərilmişdir. Burada Qızılavar kənd tibb məntəqəsində bir müddət fəaliyyətə başlamış və bir qədər sonra isə paytaxta dönərək uşaq poliklinkalarının birində çalışmağa başlamışdır. Həkim işləsədə ədəbiyyata, xüsusən də uşaqlara olan sevgisi onu yenidən Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə gətirib çıxarmışdır. Orada oxuduğu illərdə özünün “Ana” şeirini yazmışdır. Sonra isə digər uşaq şeirlərini qələmə almışdır. Onun şeirləri 1938-ci ildən dövri mətbuatda dərc olunmağa başlamışdır. Bədii yaradıcılıq sahəsində yeni, ciddi uğurlar qazanan şairə 1953-cü ildə uşaq ədəbiyyatımızın parlaq simalarından olan Mirvarid Dilbazi və Mikayıl Rzaquluzadənin zəmanətləri ilə SSRİ Yazıçılar İttifaqına üzv qəbul edilmişdir.

“Balaca həkim” adlı ilk kitabı 1955-ci ildə “Uşaqgəncnəşr” tərəfindən 30.000 nüsxə ilə çap olunmuşdur. Digər kitablarından “Çoxbilmiş çəpişlər”, “ Dovşanın ad günü”, “Ləpələrin nağılı”, “Sənubərin gözləri”, “Məni günəşə at” və b. adlarını qeyd etmək olar.

Yaradıcılığında yüzlərlə uşaq şeirinin, onlarla poema və səhnə əsərinin, 30-dan artıq kitabı olan müəllifin “Cunquş”, “Dovşanın ad günü”, “Aycan”, “Gözəllər gözəli” pyesləri, uzun müddət gənc tamaşaçılar teatrının səhnəsini bəzəyib.

Əsərlərində vətənə məhəbbət, insan əməyinə və istedadına ehtiram, təbiət gözəlliklərinə vurğunluq, ata-anaya, müəllimə, qardaş-bacıya, ümumiyyətlə, böyüklərə hörmət və ehtiram, cəmiyyətdəki eybəcər hallara nifrət, gücün birlikdə olması kimi insani keyfiyyətləri tərənnüm edən X.Əlibəylinin bəzi əsərləri keçmiş SSRİ xalqlarının, eləcə də çex və Slovak dillərinə tərcümə edilmişdir.

"Dovşanın ad günü", "Gözəllər gözəli" poemaları onun ən populyar poemalarındandır. Bu poemalar məktəb yaşına çatmamış uşaqlar üçün nəzərdə tutulmuşdur. "Dovşanın ad günü" poemasında müəllif çəpişin, quzunun, tülkünün, xoruzun, kirpinin, meymunun əlamət və cizgilərini çox ustalıqla qələmə almışdır. Əsərdə heyvanların simasında dəyanət, bir-birinə kömək etmək, əl tutmaq kimi keyfiyyətlərlə yanaşı, tamahkarlıq, oğurluq, xəyanətin də mövcud oduğunu göstərmişdir. Mənfi xüsusiyyətləri tülkünün simasında vermişdir.

Dovşana bax, dovşana.
Bu gün nə tez oyandı?
O hoppana-hoppana
Pəncərədə dayandı.
Bax atlana-atlana
Əl-qol açıb qurbağa,
Dərhal girib meydana
Başladı oynamağa.

Xanımana ömrünün ixtiyar çağında 7 may 2007-ci ildə dünyasını dəyişmiş, Bakı şəhərində dəfn edilmişdir.

Filologiya elmləri doktoru, şair Rafiq Yusiflinin yazdığı kimi, Xanımana ölsədə "mələklərin qanadında Tanrı dərgahına uçmuşdur" ("Ədəbiyyat qəzeti", 11 may 2007-ci il).

## Keçiriləcək tədbirlər

Qeyd etdiyimiz kimi öz maraqlı şeirləri ilə körpə balalarımızın sevimlisi olan şairəmizin 100 illk yubileyinin şəhərimizin orta məktəblərində, mədəniyyət ocaqlarında və

kitabxanalarında yüksək səviyyədə qeyd olunması nəzərdə tutulub. F. Köçərli adına Respublika Uşaq kitabxanası da yubilyarın kitablarının təbliği, əsərlərinin oxuculara çatdırılması üçün bir sıra tədbirlər keçirməyi nəzərdə tutmuş mədəniyyət ocaqları sırasındadır. Kitabxanada belə tədbirlərdən sərgilər, ucadan oxular, müəllifin şeirlərindən, ələlxüsus da tapmacalarından istifadə edərək keçirilən viktorinaların, ədəbi-bədii gecələrin təşkili, əsərləri əsasında hazırlanmış səhnəciklərin göstərilməsi, plakatların hazırlanması və s. daha münasibdir.

Viktorinalarda kitabxanaçının söylədiyi tapmacaların cavablarını uşaqlar dedikdən sonra fəal iştirakçılar mükafatlandırılır.

Nə əli var, nə ayağı,
Kimdir gəzir bu otağı?
Mürəkkəbi töküb mizə,
Görünməyir dəcəl gözə.
Saçlarımı tutub yoldu,
Heç bilmədim necə oldu?
(Külək)
O, ağacda yaşayır,
Qozla fındıq daşıyır.
Qoy qonaq gəlsin hər qış
Ona dostu, yoldaşı.
Bilir hara nə yığmış –
Çox yaxşıdır yaddaşı.
(Dələ)

Rəngbərəngdir – çələng deyil,
Zolaqlıdır – pələng deyil.
Göylər geyər mavi donu –
Öz belinə dolar onu.
(Göy qurşağı)

O görmür səhər çağı,
Çox itidir caynağı.
Gecələr qırıb-çatır,
Gündüzlər düşüb yatır.
(Bayquş)

Hoppandı navalçaya,
Axdı, tuta, alçaya.
(Yağış)

O, hansı canlıdır heç səsi yoxdur,
Quruya çıxmağa həvəsi yoxdur.
(Balıq)

Saqqalı al rəng olur,
Tükləri qəşəng olur.
Oxuyur neçə dəfə,
Səs düşür hər tərəfə.
Əlbəttə, artist deyil,
Ancaq səsi pis deyil.
(Xoruz)

Bildiyimiz kimi kitabxanada keçirilən tədbirlər bir neçə formada həyata keçirilir. Bunlar mövzu və ya yubilyarın yaradıcılığının təbliği ilə bağlı olub müəyyən istiqamətlərdə hazırlanır.

Qeyd etdiyimiz kimi bəstəkarlar, Xanımana Əlibəylinin sözlərinə bir çox mahnılar yazıblar. *Bunlardan "Əks-səda" (Söz: Xanımana Əlibəyli, musiqi: Hökümə Nəcəfova); "Armud" (Söz: Xanımana Əlibəyli, musiqi: Şəfiqə Axundova); "Günəş olaram mən də" (Söz: Xanımana Əlibəyli, mus: Hökümə* Nəcəfova); "Qonaqlıq" (Söz: Xanımana Əlibəyli, mus: Oqtay Zülfüqarov) və başqalarını göstərmək olar. Bu mahnılardan ibarət kitabxanada "Xanımana Əlibəylinin yaradıcılığında uşaq musiqisi" adlı əyləncəli musiqi saatı keçirə bilərik.

**Günəş olaram mən də**

Söz:Xanımana Əlibəyli
Mus:Hökümə Nəcəfova
Qışda şaxtada, buzda,
Günəş çimir hovuzda.
Qoy gətirim ləyəni,
Su tök, yuyundur məni.
Ay ana, böyüyəndə
Günəş olaram mən də.
Qışda şaxtada, buzda,
Günəş çimir hovuzda.
Lap istisində yayın
Qoy gətirim ləyəni,
Su tök, yuyundur məni.
Ay ana, böyüyəndə
Günəş olaram mən də.

**Təzə il**
Söz: Xanımana Əlibəyl
Mus: Hökümə Nəcəfova
Döşündə ağ qərənfil,
Sən gələndə, təzə il,
Xoş gəlmisən, təzə il.
Ağ gül açır elə bil;
Yolkamıza qar ələ,
Yolkamıza qar ələ,
Gəl, oynayaq əl-ələ.
Gəl, oynayaq əl-ələ.
Çöllərdə fırfıra tək
Hərlədir qarı külək.
Yolkamıza qar ələ,
Gəl, oynayaq əl-ələ.

## Kitab sərgisi

Kitabxanalarda sərgilərin təşkili əyani təbliğat formasının ən geniş yayılmış üsulundan biridir. Belə sərgilər həcminə, tərtibat texnikasına və müddətinə görə bir-birindən fərqləndirilir bir və ya bir neçə lövhədə, stenddə yerləşə bilir. Əsasən baxılmaq üçün təşkil olunduğundan, sərginin tərtibinin böyük əhəmiyyəti vardır. Burada mətn və təsvir materialları bir-birini tamamlamalıdır. Qeyd edək ki, kitabxanalarda təşkil edilən sərgilərdə kitablarla yanaşı, müxtəlif qəzet və jurnal nömrələri də əksini tapır ki, bu da həmin sərginin əhəmiyyətini xeyli artırır. Kitab sərgiləri yalnız burada nümayiş etdirilən kitabların məzmununa görə deyil, eyni zamanda məqsədinə görə - tədris prosesinə və şəxsi təhsilə kömək məqsədi də daşıyır.

Xanımana Əlibəylinin yubileyinə aid kitab sərgisi aşağıdakı qaydada tərtib edilir: Sərginin ümumi başlığı və yarımbaşlıq, tövsiyə olunan ədəbiyyat, sitat (mövzu haqqında izahlı mətnlər) şəkil (foto illüstrasiyalar).

Ümumi başlıq sərginin mövzusunu və onun əsas məzmununu müəyyən edib aydınlaşdırır. Yubilyarın yüz illik yubileyinə aid olan sərgiyə *“Xanımana Əlibəylinin uşaq yaradıcılığı dünyasına səyahət”* adlı başlıq verə bilərik. Sərginin düzülüşündə hər şeydən əvvəl kitabxanaçı müəllifin çap əsərlərini və ayrı-ayrı şəxslərin müəllif haqqında yazdığı əsərləri nəzərə alır. Eyni zamanda sərgidə çap əsərlərindən, foto və illüstrasiyalardan istifadə edilir. Çünki kütləvi təbliğat məqsədilə nümayiş etdirilən sərgilər təkcə zahiri parlaqlığı ilə deyil, eyni zamanda, məna ifadə etməsi ilə də diqqəti cəlb etməlidir. Bir cəhəti qeyd edək ki, oxucu sərgi vasitəsilə buradakı kitablarla təmasda olarkən onu araşdırır, hər hansı müəllif və ya mövzu haqqında məlumatlar qazana bilir.

Bilirik ki, kitabxana sərgilərinin maraqlı olmasında sitatların da mühüm əhəmiyyəti vardır. Sərgi üçün sitat seçərkən görkəmli elm, maarif, ədəbiyyat və mədəniyyət xadimlərinin, eləcə də tanınmış ictimai xadimlərin fikirlərinə müraciət edilir. Uşaq

yazıçımız Xanımana Əlibəyli haqqında da görkəmli elm xadimləri, yazıçı və şairlərin çoxlu fikirləri vardır. Bu sitatlardan biz sərgidə istifadə etmək üçün nümunə veririk:


















## Görkəmli şəxsiyyətlər Xanımana Əlibəyli haqqında

Xanımana Əlibəyli Azərbaycan uşaq ədəbiyyatının klassiki və uşaq dramaturgiyasının banisidir.

**Anar,**
*Xalq yazıçısı*

Xanımna Əlibəyli uşaq ədəbiyyatımızın "xanım anası" və Azərbaycan uşaq poeziyasının banisidir.

**Bəkir Nəbiyev**,
*akademik*

Fəxr edirəm ki, anamın şeirlərini bu gün də uşaqlar sevə-sevə oxuyurlar. O hər gələn uşaqlarla yenidən doğulacaq, müstəqil Azərbaycanın yeni-yeni körpə nəsilləri onun "Dovşanın ad günü"ndə iştirak edəcək.

**Gülər Abdullabəyova,**
*f. e. d., professor*

Xanımana oxucularla görüşlərində "şeirlərini uşaqlara məxsus avaz, hərarət və təbiiliklə, həmdə məlahətlə oxuyur. Onun şeir oxumasında səmimiyyət çox güclüdür və bu səmimiyyətdə işıqlı bir sehr vardır.

***Tofiq Mahmud,***
*şair, nasir, tərcüməçi, publisist*

Kitabxanada bildiyimiz kimi ən əsas təbliğat formalarından biri kitab sərgiləri ilə yanaşı kitab guşələridir. Xanımana Əlibəylinin kitablarını təbliğ etmək üçün onun yaradıcılığı və fəaliyyətindən bəhs edən *"Uşaqların sevimlisi – 100" başlıqlı kitab guşəsidə təşkil edə bilərik. Guşələr* – sərgiyə nisbətən geniş və əhatəli olub müəllif haqqında əlavə olaraq kartoteka, qəzet, jurnal materialları, tövsiyə ədəbiyyat siyahılarını özündə birləşdirir. Guşələrin təşkilində əsas məqsəd oxucuya axtardığı

materialları asanlıqla tapmaqda kömək etməkdən ibarətdir. Bu işdə hər cür texniki təbliğat vasitələrindən belə istifadə edirik. Bunlardan əsas www.clb.az saytının elektron ünvanını qeyd edə bilərik.

**Plakat:** Kitabxanalarda ədəbiyyatın kütləvi əyani təbliğat üsullarından danışarkən kitab sərgiləri ilə bərabər kitabxana plakatlarınında xüsusi rolu vardır. Plakat təsviri sənətin kütləvi növü olub, əyani təbliğatın ən təsiredici vasitələrindən biridir. Kitabxanalarda müxtəlif növlərinə müraciət olunan plakatlar həm öz məzmunu, həm forması, həm də qarşısına qoyduğu məqsədinə görə bir-birindən fərqlənir. Hər hansı mövzuda kitabxana plakatı tərtib edən kitabxanaçı qarşıya qoyduğu məqsədə yalnız o zaman nail ola bilər ki, istər seçdiyi mövzu, istərsə də orada nümayiş etdirilən kitablar, illüstrasiyalar və mətnlər müxtəlif yaşlı oxucu qrupları üçün anlaşıqlı, maraqlı olsun. Təbliğat xarakterli plakatda sərgiyə nisbətən əyanilik daha güclü olur. Kitabxanalarda klassiklərlə, müasir yazıçı və şairlərlə yanaşı uşaq yazıçımız Xanımana Əlibəyli, yaradıcılığına həsr olunmuş plakatın tərtibi məqsədəuyğundur. Xanımana Əlibəylinin yaradıcılığına dair kitablarla yanaşı, həm də həyat və fəaliyyəti, yaşadığı tarixi dövr haqqında müəyyən məlumat verilir. Həmçinin plakatda əsas müəllifin kitablarının üz qabığı (plakatda əl ilə çəkilmiş, yaxud fotoşəkil), bir neçə sitat, qısa mətn və plakatın əsas ideyasını açan, mənalı başlıqlar və illüstrasiyalar verilir. Burada yubilyarın ədəbiyyatının qısa annotasiyası verilir. Annotasiyalar kitabların ideya və məzmununun açılmasına kömək edir.

**İnternet vasitəsilə təbliğat:** İnternet vasitəsilə təbliğat da bu gün kitabxanaların fəaliyyətində geniş imkanlar açmağa kömək edir. Elə buna görə də indi kitabxanamızda xidmətlər təkmilləşdirilir, fond müasir informasiya daşıyıcıları ilə zənginləşdirilir, elektron məlumat bankları yaradılır, kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi üçün tədbirlər görülür. Yeni texnologiyaların tətbiqi ilə əlaqədar

uşaq kitabxanası olaraq oxuculara yeni online xidmət növləri təklif edilir ki, internet bu xidmət növünün həyata keçirilməsində əvəzsiz vasitədir. Kitabxana xidməti üçün kompüter texnologiyalarının istifadəsi bir neçə istiqamətdə olur: - sərgi fəaliyyəti; - nəşriyyat fəaliyyəti (CD və digər elektron nəşrlər); - online rejimində kitabxana xidməti. Kitabxana reklamlarının yayılmasında uğurlu vasitələrdən biri də kitabxanaların saytıdır. Kompüter texnologiyalarının kitabxanaların sərgi fəaliyyətində istifadə olunmasının yüksək effektivliyi bir sıra obyektiv amillərlə şərtlənir. Kitabxana xidmətində kompüter texnologiyalarının tətbiqi müasir dövrün əsas tələbidir. Hazırda kitabxanaların sərgi fəaliyyətində kompüter texnologiyalarından istifadə bir qayda olaraq başlıqların, sitat və illüstrasiyaların qrafiki tərtibində istifadə olunur. Bununla yanaşı multimedia texnologiyaları informasiyaların təqdim olunmasında müəyyən qədər sərhədləri genişləndirir və məhsulların yayılmasına imkan verir. Elektron sərgi ənənəvi (kitab) və yeni (elektron) qaydaların sintezində informasiyanın təqdim olunma üsuludur. Kitabxanaçının fəaliyyəti daim yaradıcılıq tələb edir. Əgər kitabxanaçı yaradıcıdırsa, özünün peşə hazırlığının qayğısına qalırsa, kitabxana işinə qoyulan tələblərə cavab verirsə, müasir informasiya texnologiyalarından bacarıqla istifadə edərək, tədbirləri öz fantaziyasına uyğun, yaradıcı şəkildə təşkil edəcək, öz işində layiqli uğurlar, müvəffəqiyyətlər qazanacaq.

**Şifahi təbliğat.** Ədəbiyyatın şifahi təbliğatı özünün fərqləndirici xüsusiyyətləri, üstünlükləri ilə seçilir ki, bu da konkret auditoriyanı, onun intellektual səviyyəsini, marağını, həvəsini nəzərə almaqla istənilən nəticəni verəcək tədbir keçirməyə imkan verir.

***Ucadan oxu.*** Kitabxanada ucadan oxu növlərindən daha çox istifadə olunur. Ucadan oxu müəyyən mətn və əsərlərin fonetik, orfoepik və sintaktik qaydalara riayət edilməklə oxunuşudur. Burada məqsəd orfoepiya qaydalarını mənimsətmək və

həmçinin mətnin məzmununu izahsız öyrətməkdir. Ucadan oxunun I-II sinif şagirdləri üçün keçirilməsi daha məqsədəuyğun hesab olunur. Bu I sinif şagirdlərinə oxu texnikasına yiyələnməkdə kömək etmiş olur. Həmçinin, onların oxuduğu söz, ifadə və cümlələri yadda saxlamaqlarına kömək edir. Ona görə də aşağı sinif şagirdlərinin sinifdənxaric qiraətlə oxu texnikasını inkişaf etdirmək və təkmilləşdirmək lazımdır. Ucadan oxu təkcə ibtidai siniflərdə deyil, orta və yuxarı sinif şagirdləri arasında da müzakirə və konfranslar zamanı mütaliə mədəniyyətini təkmilləşdirmək məqsədilə keçirilir.

Xanımana Əlibəylinin "***Balaca həkim***" adlı miniatür poemasının ucadan oxusunu kitabxanada kiçikyaşlı oxucularla keçirmək daha maraqlı olar. Burada müəllifin əsas təsvir və tərənnüm obyekti heyvanlar, onların kukla və və oyuncaq variantlarıdır. Onlar hamısı xəstələniblər. Balaca qızcığaz isə onlara ana qayğısıtək şəfqət göstərir. Həkim qızcığaz özü xəstələnəndə aldığı anasından müalicələr əsasında onları müalicə edir. Boğaz ağrısına mübtəla olmuş qaza qarqara edir, səhərəcən öskürmüş boz itin belinə banka salır, keçinin yarasını sarıyır.

Sağ qoluma bağladım
Tez aypara nişanı.
Yavaşca qucaqladım
Atı, fili, dovşanı - …..

Sonda kitabxanaçı dinləyicilərin fikrini öyrənir, onların suallarını cavablandırır və müzakirə ilə başa çatır. Ucadan oxunu uşaqlara daha maraqlı etmək üçün kitabxanaçı pyes haqqında suallar hazırlayır.

1. "Balaca həkim" adlı miniatür poemasında müəllifin əsas təsvir obyekti nədir?
2. Balaca qızcığaz onlar üçün öz xəstəxanasını harada yaratmışdır?

3. Həkim qızcığaz necə heyvanları belə ürəkdən müalicə edir?
4. Əsərdə xəstələrin həkimi olan qızcığaz necə tərənnüm edilir?
5. Kukla heyvanlarının xəstələndiyini görən balaca qızcığaz hansı tədbirləri görür?

**İfadəli oxu.** Kitabxanada ifadəli oxu kiçikyaşlı məktəblilərin marağına səbəb olan tədbirlərdən biridir. İfadəli oxu balacalar arasında bədii ədəbiyyatın ən yaxşı tövsiyə forması, təbliğatın özəyi olub, kitaba və mütaliəyə kiçik yaşlarında onlarda dərin məhəbbət oyadır. Müəllifin "Çoxbilmiş çəpişlər" poemasından bir parçasının ifadəli oxusunu kitabxanada keçirmək daha məqsədəuyğun olar. Əsərin qəhrəmanları olan, şairin çoxbilmişlər adı verdiyi çəpişlər analarının evdə olmadığından istifadə edib onları parçalamağa macal axtaran canavarın niyyətini başa düşürlər. Kitabxanalarda təbliğat işinin şifahi üsulları kütləvi kommunikasiya vasitələrinin ağlagəlməz inkişafı dövründə belə öz üstünlüyünü qoruyub saxlayır. Ən əsası isə budur ki, bu zaman oxucularla birbaşa əlaqə saxlayan və üzbəüz ünsiyyətdə olan kitabxanaçı oxucunun reaksiyasını dərhal öyrənmək və məsələni dəqiqləşdirərək onun diqqətini lazımi istiqamətə yönəltmək imkanına malik olur. Burada kitabxanaçının nitq mədəniyyəti, ifadə vasitələrinin zənginliyi mühüm əhəmiyyət kəsb edir. Ona görə də hər bir kitabxanaçı öz ünsiyyət mədəniyyəti ilə yanaşı, nitq mədəniyyətinə də fikir verməlidir. Müşahidələr göstərir ki, məktəblilərin əksəriyyəti bu və ya digər mətni məntiqi vurğulara riayət etmədən, yeknəsək və qüsurlu oxuyur və beləliklə, məzmununu dinləyiciyə dolğun çatdıra bilmir. Ona görə də düzgün qiraət aşılamaq üçün kiçik yaşlı şagirdlərlə uzun müddət və ardıcıl işləmək lazımdır.

***Bərpanəşr.*** Yazıçılarımızın əməyinə, dövlət tərəfindən diqqət və qayğı olaraq onların əsərlərinin kiril əlifbası ilə olan çap variantı bərpanəşr layihəsi ilə olduğu kimi nəşr edilmişdir. Yeni nəşr kitabların şəkilləri, illisturasiyaları belə köhnə

variantlarında olduğu kimi qalmaq şərtilə yenidən həyata keçirilmişdir. Bu layihə kitabxanalarda bir nüsxəsi qalmış nadir kitabların yenidən oxuculara təqdim olunmasında mühüm rol oynayır. 2016-cı ildən bu günə qədər layihə çərçivəsində uşaq ədəbiyyatı üzrə 58 adda kitab işıq üzü görüb. Onların bir neçəsi Türkiyədə "Zəngin Yayınçılıq" nəşriyyatı tərəfindən çap olunaraq qardaş ölkənin oxucularına təqdim edilib. Bu nəşrlər ötən əsrin əvvəllərindən 80-ci illərədək olan dövrdə çap olunan və kitabxananın "qızıl fond"unda saxlanılan kitablardır.

Xanımana Əlibəylinin 1964-cü ildə "Azərnəşr"də kiril əlifbası ilə çap edilən "Ağ çəmən" adlı şeirlər kitabıda Mədəniyyət və Turizm Nazirliyi tərəfindən F. Köçərli adına Respublika Uşaq Kitabxanasının iştirakı ilə həyata keçirilən bu layihənin nəşrləri sırasındadır. Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır. "Ağ çəmən" də şair uşaqların zəhmətə olan meylini həvəslə qələmə almışdır. Kitabın tam pdf variantı F.Köçərli adına Respublika Uşaq Kitabxanasının www.clb.az saytında yerləşdirilmişdir. Xanımana Əlibəyli istedadlı uşaq şairəsidir. Nəşriyyatımız onun bu vaxta qədər "Balaca həkim", "Dovşanın ad günü", "Meşə həkimi", "Novruz və Murtuz", "İşləməyən dişləməz" kitablarını buraxmışdır. Müəllif "Ağ çəmən" kitabına yeni şeirlərini daxil etmişdir.






**Ağ çəmən / Xanımana Əlibəyli ; rəs. D.Kazımov ; red. İ.Tapdıq ; tex.red. V.Avadeyeva ; korrekt. F.Abbasova - Bakı : Azərnəşr, 1963. - 23 s.**

**“Bərpanəşr”**
**Ağ çəmən / Xanımana Əlibəyli; burax. məs. A.Cəfərov, Ş.Qəmbərova ; red. Z.Dadaşova , S.Səmədova ; dizayn. V.Ağamirzəyeva , E.Səfərəliyeva ; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. F.Köçərli adına Respublika Uşaq Kitabxanası - Bakı : "Renessans-A", 2017.- 23 s.**

Yazıçının kitablarının bir neçə nüsxəsi F. Köçərli adına Respublika Uşaq Kitabxanasında yaradılan kitabxananın *Qızıl fondu* tərəfindən mühafizə edilir. Qızıl fondda saxlanılan bu kitablardan, istifadəçilər kitabxananın www.clb.az saytında elektron variantda istifadə edə bilərlər.

Kiçikyaşlı məktəblilər rəngarəng, maraqlı tədbirləri sevirlər. Şairin yaradıcılığından seçilən şeir nümunələri onlara maraqlı görünəcək, tədbirə həvəslə qoşulacaqlar. Təbii ki, oyunlar, viktorinalar vasitəsi ilə. Kiçikyaşlı məktəblilər üçün hazırlanan proqramlar yorucu olmamalıdır. Bu, hökmən nəzərə alınmalıdır. Ona görə də Xanımana Əlibəylinin yaradıcılığını tanıtmaq üçün proqrama şairənin şeirlərindən hazırlanmış oyunlar, viktorinalar, kiçik şeir müsabiqəsi daxil edirik. Belə ki, “Davamını sən de” oyunu zamanı onun yazdığı şeirlərdən bir neçəsini kitabxanaçı oxuyur. Davamını isə oxucular söyləyirlər.

Ana dedi: - Oğlum Vüsal,
Bu gün nənənlə evdə qal,
Dərslərini hazırla sən,
Teatra gedirəm mən.
Anasına dedi Vüsal:
- Məni orda yadına sal
Qurdun evdə bir özü,
Bir də qoca atası var.
Düz çölə baxır gözü,

Yəqin bir xatası var.
Aya baxın uzaqdan,
Elə bil ki, yemişdi.
Qoy dərim onu tağdan,
İriləşib dəymişdir.

Xanımana Əlibəylinin yaradıcılığını uşaqlara yaxından tanıtmaq üçün *"Uşaqların sevimlisi"* başlığı altında şeir gecəsi keçirə bilərik. Gecə, musiqisi uşaq bəstəkarı Hökumə Nəcəfovanın, sözləri Xanımana Əlibəylinin yazdığı "Günəş olaramməndə" mahnısı ilə başlayır. Kitabxanaçı uşaqlara tədbirin səbəbkarı haqqında məlumat verir. Sonra şeirlərindən və uşaqlar üçün maraqlı bir janr olan tapmacalarından nümunələr oxuyur, sözlərinə yazılmış mahnılar dinlənilir.

Şifahi ədəbiyyatımızın təbliğinin təsirli formalarından biri də, *sual-cavab gecələridir*. Sual-cavab gecələrinin keçiriləcəyi yerdə müəllifin kitablarından ibarət sərgi təşkil edilir. Kitabxanaçı orada uşaqlara müəllif haqqında məlumat verir, ən çox oxunan əsərlərindən parçalar oxuyub təhlil edir. Sual-cavab gecələrində uşaqlar sualların cavabını kitabxanaçı ilə birgə tapırlar.

**1.**Uşaq yazıçısı kimi tanıdığımız Xanımana Əlibəyli ixtisasca kim olub?
a) müəllim
b) həkim
**2.** Yazıçının ilk şeirlər kitabı hansı olub?
a) "Balaca həkim"
b) "Cunquş"
c) "Dovşanın ad günü"
**3.** Xanımana Əlibəyli hansı uşaq jurnalının baş redaktoru olmuşdur?
a) "Pioner"
b) "Bala dili"
c) "Göyərçin"
**4.** " Dovşanın ad günü " hansı motivlər üzərində qurulmuşdur?

a) heyvanlar və onların oyuncaq variantı
b) dovşanın heyvanları başına yığıb ad günü etməsindən
c) ağaclar və bitkilər
5. Xanımana Əlibəyli hansı əsərinə görə Respublikanın Dövlət mükafatına layiq görülmüşdür?
a) “Nişanlı quş”
b) “Gözəllər gözəli”
c) “Cunquş “
6.Yazıçının hansı əsəri  tamaşaya qoyulmuşdur?
a) “Cunquş”
b) “Gözəllər gözəli”
c) “Kənd həkimi”
7. Yazıçının “Cunquş” əsərində hansı insani keyfiyyətlər təcəssüm edilir?
a) düzlük
b) yaxşılıq və pislik
c) oğurluq
8.Yazıçının “Nişanlı quş” pyesində hansı obrazlar verilib?
a) palıd, külək, çay
b) bayquş, ağacdələn, sərçə
c) palıd, cüyür, pişik
9. “Nişanlı quş” pyesində Qoca palıdı xəstəlikdən xilas edən ağacdələnə meşədə hansı ad verilir?
a) meşə həkimi
b) tıq-tıq
c) ağacdələn
10. Xanımana Əlibəylinin sözlərinə yazılmış hansı mahnıları tanıyırsınız?

## Kitab müzakirəsi

Kitabxanada təşkil edilən kitab müzakirələri oxucuların fəallığının artmasında xüsusi rol oynayır. Kitab müzakirələri zamanı bədii əsərlərin düzgün seçilməsinə diqqət edilməlidir. Belə ki, düzgün seçilən əsərlər oxucuların sərbəst fikir yürütmək

qabiliyyətlərinin inkişafına, dünyagörüşün artmasına kömək edir və müzakirə iştirakçıları tərəfindən maraqla qarşılanır. Xanımana Əlibəyli yaradıcılığında dostluğa sədaqət, vətənpərvərlik, mərdlik kimi insana xas olan müsbət keyfiyyətlər əsas götürülür və maraqlı nümunələrlə zəngindir. İki pərdəli "Nişanlı quş" pyesinə nəzər salaq. Əsərin süjet xətti çox sadədir: Meşənin qüdrətli Qoca Palıdının yarpaqları qurumağa başlayıb. Ona kim kömək edə bilər? Pyesdə meşə üçün xarakterik olan Külək, Çay, Bayquş, Ağacdələn, Cüyür, Sərçə kimi obrazlar iştirak edirlər.

Axşam oldu, yuxusu var çiçəklərin,
Alabəzək böcəklərin.
Axşam oldu, mürgüləyir ağaclar da,
Meşələr də, yamaclar da.
Bir Palıddır səhərəcən oyaq qalan,
Dərin-dərin fikrə dalan.

Buradakı fikirlər metaforik bir mənaya malikdir: "Bir Palıddır səhərəcən oyaq qalan". Yəni, ailənin başçısı daim oyaqdır, oyaq qalmalıdır. Amma onun quruması əsl fəlakətdir və meşədə bu çətin işin qarşısı alınmalıdır. Burada Bayquş "gecələrin hakimi" adlandırılır. Ağacdələn isə "meşə həkimi"dir. O, Palıdı "müalicə edir" və Palıd yarpağından hazırlanmış "nişan" alır ki, bu da ən böyük "meşə təltifi"dir. Əsərdəki maraqlı obrazlardan biri də, Külək və Çay obrazlarıdır. Pyesdə hər obrazın özünəməxsus vəzifəsi var.

**Külək:** "Gedirəm, işləsin yel dəyirmanı".

**Çay:** "Mən axıram göy tarlalar boyunca, Əkinçilər sudan içsin doyunca".

Kitabxanada vətənpərvərlik mövzusu vaxtaşırı müzakirə edilir. Şairənin "Sevimli şəhid babam" poemasında uzun illər boyu çörəyini yeyib suyunu içdikləri Azərbaycanda ermənilərin azərbaycanlılara nifrətindən bəhs edən epizodlar çox təsirlidir. Bu əsərin də, uşaqlarla müzakirəsi maraq doğurar.

Xanımana Əlibəylinin yaradıcılığı daim diqqət mərkəzində olmuş, yüksək qiymətləndirilmişdir. “Aycan” pyesinin uğurlu tamaşası münasibətilə yaradıcı heyətin üzvləri- rejissor Ulduz Rəfili, bəstəkar Şəfiqə Axundova və baletmeyster Nailə Nəzirova ilə birlikdə Xanımana Əlibəyli də Azərbaycan SSR-in Dövlət mükafatına layiq görülmüşdür. 1991-ci ildə şairəyə Əməkdar incəsənət xadimi adı verilmişdir. 1998-ci ildə o, “İlin qadını” adına layiq görülmüşdür. X.Əlibəyli “Aman ovçu”, “Ağ çəmən”, “Ulduzların qucağında”, “Bir yay səhəri”, “Çoxbilmiş çəpişlər”, “Məni günəşə at!”, “Meşə həkimi”, “Sevimli şəhid babam” və digər poemaların da müəllifidir.

Uşaqlar, şairin “Cunquş” əsərini oxumusuz? Bilirsinizmi ki, bu əsər də ona uğur gətirib. Teatrlarımızda müvəfəqiyyətlə tamaşaya qoyulan “Çunquş” də Dövlət mükafatına layiq görülmüşdür. Əsərlərinin bir çoxunda olduğu kimi, burada da yaxşılıqla pislik arasında gedən mübarizə təsvir edilir. Hadisələr Cunquşla Yeltay arasında gedən mübarizə ətrafında cərəyan edir. Cunquş müsbət qəhrəmandır, heç bir şəxsi mənfəət güdmədən ehtiyacı olan insanlara kömək edir. Vəli babanın bağını alaqdan təmizləyir, suvarır, qıçı sınmış keçisinin qıçını sarıyır. Heç vaxt da xeyirxah əməlindən bezib usanmır. Maraqlı orasıdır ki, gördüyü işləri gizli saxlayır. Vəli baba ona kömək eləyənin adını belə bilmir... Yeltay isə xarakterсə onun əksinədir. Gözü həmişə onun-bunun əlində, cibindədir. Ondan kömək istəyənə birinci sözü bu olur ki, əvəzində nə verəcəksən? Əsəri oxuduqdan sonra belə nəticəyə gəlirik ki, Cunquş kimi xeyirxah insanları qorumaq, onlarla dost olmaq, onların əməllərindən dərs almaq lazımdır. Xanımananın Yeltay adı verdiyi mənfi qəhrəman adına uyğun olaraq yelbeyin olur. Beləlılı yaddaşlarda pis insan kimi qalırlar... Yazıçının “ Balaca həkim” adlı poeması da sevə-sevə oxuduğumuz əsərlərdəndir. Həkimlik sənətini uşaqlara sevdirməkdə bu əsərin böyük rolu olmuşdur.

Maraqlı bir faktı diqqətinizə çatdırmaq istəyirəm. Xanımana Əlibəyli ömrünün qürub elədiyi çağlarda bir şeir yazıb və onu "Yalvardım Allaha" adlandırıb. Daha doğrusu, öz poetik irsinin taleyi ilə ilgili Allaha müraciət edib. Şairlik istedadını ona verdiyi üçün Yaradana şükür və minnətdarlıq edib. Sonra əsərlərinin uzunömürlü olması, gələcəkdə millətimizin balalarının işinə yaraması üçün Allahın dərğahına üz tutub, ondan kömək itəəyib...

Bir qarlı qış
Mənə şeir verdi bəxşiş.
O qışımı yaz eylədi,
Bəxtimi bəyaz eylədi.
Allah onu etdi ətir?
Səpdi aylara, illərə.
Yalvardım: Allahım, yetir
Şerimi nəsillərə.

Digər bir maraqlı faktı diqqətinizə çatdırım. Bu "Cunquş" pyesi ilə əlaqədardır. Belə ki, Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının kolllektivi 1980-ci ildə Hindistanda qastrol səfərinə yollanır. Dehli və Bombey şəhərlərində iki əsərin tamaşası ilə çıxış edir. Böyük Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun "Məşədi İbad" komediyası və Xanımana Əlibəylinin "Cunquş" pyesi ilə. Hər iki tamaşa böyük rəğbətlə qarşılanır. Bu barədə Bakı qəzetlərindən birində belə yazılıb: "Xeyirxahlıq mücəssəməsi Cunquşu Hindistanda da sevdilər!"

**Tamaşaya baxış.** Müəllifin əyləndirici kompozisiyalarını, cazibədar obrazları, aydın və ahəngdar dili ilə balacaları ovsunlayan əsərlərini azyaşlı tamaşaçılar həmişə hərarətlə qarşılamışlar. Çünki bu əsərlərdə dostluq, sədaqət, düzlük, darda qalana kömək əli uzatmaq, zəhmətsevərlik və təmizkarlıq kimi insani keyfiyyətlər gərgin dramatik kolliziyalar, canlı bədii obrazlar əsasında təbliğ və təlqin edildiyi halda, tamahkarlıq, tüfeylilik, xəyanət, oğurluq, çapqınçılıq, yırtıcılıq da elə həmin bədii vasitələrlə, ustalıqla ifşa olunur.

Kitabxanada yubilyar yazıçı və şairləri oxuculara təbliğ etmək üçün keçirilən maraqlı tədbirlərdən biri də yazıçının tamaşaya qoyulmuş əsərlərinin tamaşasına baxış keçirilməsidir. Bu baxımdan 100 illk yubiley ərəfəsində Xanımana Əlibəylinin Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında səhnəyə qoyulmuş "Dovşanın ad günü", "Cunquş" əsərlərinə baxış keçirə bilərik. Əsərə kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulmuş zalda uşaqlar tamaşa edə bilər. Həmçinin uşaqlarla birgə teatrların birində əsərin nümayişinə baxmaq olar. Bunun üçün ilk olaraq oxucuları xəbərdar etmək üçün bu tədbir haqqında elan vurulur. Müəyyən edilmiş vaxtda tamaşaya baxış keçirilir.

Xanımana Əlibəylinin eyniadlı əsəri əsasında hazırlanmış tamaşanın quruluşçu rejissoru Xalq Artisti Ağaxan Salmanlı, quruluşçu rəssamı Elşən Sərxanoğlu, rəqslərin quruluşçusu Vüsal Mehrəliyev, oranjemançısı Vasif Hüseynlidir. Tamaşada mərhum bəstəkar, Xalq Artisti Şəfiqə Axundovanın bəstələrindən istifadə olunur.

Tülkü ilə canavarın dovşanı yemək üçün qurduqları hiylədən bəhs edən tamaşanın nə ilə nəticələnəcəyini bilmək istəyən bütün azyaşlı tamaşaçılarımızı repertuarımızı izləməyə dəvət edirik.

**Görüş.** Kitabxanada kitab müəllifləri ilə keçirilən görüşlər, dünyadan köçmüş yubilyarlar üçün anım gecələri, çox əhəmiyyətli olub, oxucunun bilavasitə müəllifin yaradıcılığını yaxından tanımasına gözəl vasitədir. Burada yaradıcı ziyalılar, mühazirəçilər, çıxışçılar həm də natiqlik məharətlərinə görə seçilən qonaqlar iştirak edir. Dünyadan köçmüş yazıçı və şairlərimizin anım gecələrində isə onlar haqqında xatirələrini bölüşmək üçün onları tanıyan, yaradıcılığına bələd olan insanlar iştirak edir. Bu tip tədbirlərdə iştirakçıların diqqətini cəlb etmək üçün kitab, müəllif haqqında maraqlı məlumatları yüksək natiqlik məharəti ilə çatdırmaq, sözün qiymətini artırmaq üçün iştirakçılarda dərin təəssürat yaratmaq böyük əhəmiyyət kəsb edir. Xanımana Əlibəylinin yubileyi ilə danışmaq üçün əlaqədar

anım gecəsinə şairənin qızı f.e.d. Gülər Abdullayevanı dəvət edirik. Gülər Abdullayeva hazırda AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda aparıcı elmi işçi kimi çalışır. Həmçinin bu tədbirlərin keyfiyyətli təşkil edilməsi üçün Xanımana Əlibəylinin yaradıcılığından bəhs edən müasir texniki vasitələrin gücündən, indiyə qədər çap olunmuş materiallardan bəhs edən lent yazılarından, audio-video materiallardan istifadə olunmaqla hazırlanmış slayd hazırlayırıq. Təəssüratların uzun illər yaşamasında görüşlərdə iştirak edən maraqlı şəxsiyyətlərin çıxışları mühüm əhəmiyyət kəsb edir. Məktəblilər ideallaşdırdıqları, əlçatmaz bildikləri həmin şəxsiyyətlərlə üzbəüz təmasda olduqdan sonra özləri də bu zirvəni fəth etmək arzusunda olurlar, onlarda müsbət keyfiyyətlər formalaşır, inkişaf edir. Oxucuları yazıçı və şairlərin, müharibə iştirakçılarının, deputatların və digər görkəmli şəxslərin həyat və yaradıcılığı ilə daha yaxından tanış etmək üçün keçiriləcək görüşlər qabaqcadan planlaşdırılmış şəkildə hazırlanmalıdır. Gecəni aparıcının giriş sözü ilə başlamaq olar. Aparıcı gecəyə dəvət olunanları tədbirin iştirakçıları ilə tanış edir, qısaca həyat və yaradıcılıqlarından danışır, sonra sözü onlara verir. Bundan sonra tədbir iştirakçıları suallar verir, bəzən isə təklif və rəylərlə çıxış edirlər. Bir çox hallarda görüşü keçirilən şair və yazıçının əsərlərinin mövzusunda klubun bədii özfəaliyyət üzvlərinin xüsusi konsert çıxışları təşkil edilir. Sonda oxucular çıxış edə və görüşə çağırılmış şəxsə suallarla müraciət edə bilərlər. Tədbirin sonunda kitabxanaçı oxucuların, eləcə də kitabxana işçilərinin adından görüşə gələn şəxsə təşəkkürünü bildirməlidir. *Ədəbi-bədii gecə:* Məktəb kitabxanalarında təbliğat ədəbi-bədii gecələr vasitəsilə də həyata keçirilir. Ədəbi-bədii gecələr tanınmış şair və yazıçılardan birinin yaradıcılığına, habelə bir və ya bir neçə ədəbi əsərə həsr oluna bilər. Bu tədbirlər böyük təhsil və tərbiyə əhəmiyyəti kəsb edir, bədii əsərə sevgi oyadır, bədii zövqü formalaşdırır, ciddi mütaliəyə maraq yaradır. Keçiriləcək tədbirin kompozisiyasından asılı olaraq xüsusi proqram, ssenari

tərtib edərək, teatrlaşdırılmış səhnəcik qurmaq olar. Gecəyə hazırlaşmaq yaradıcılıq qabiliyyəti tələb edir. Kitabxanaçı gecənin əvvəlindən sonuna kimi bütün elementləri (çıxış, rəy, qonaqlara söz vermə, musiqi nömrələrini) ssenaridə əks etdirir. Ssenari tərtib edilərkən seçilən şeir parçalarının, çıxışların, diktor replikalarının məzmununun iştirakçıların ideya-siyasi tərbiyəsinə müsbət təsiri diqqət mərkəzində saxlanmalıdır. İştirakçıların yerləşdirilməsi, diktorların yeri, qonaqların qarşılanması, ədəbi-bədii gecə keçiriləcək zalın mövzuya uyğun bəzədilməsi, lazımi stend, sərgi, ədəbi bülleten və albomların hazırlanması əvvəlcədən planlaşdırılmalıdır. Gecədə müəllifin əsərlərinin tərcümələrindən də istifadə olunmalıdır. Adından məlum olduğu kimi ədəbi-bədii gecə iki hissəyə bölünür. Hər bir ədəbi gecənin əsasını məruzə təşkil edir. İkinci hissə isə tədbirin mövzusu ilə bağlı şeir, bədii qiraət, ədəbi kompozisiya və səhnəciklərlə tamamlanır. Gecənin mövzusuna uyğun ədəbiyyat sərgisi, viktorina, ədəbi oyunlar hazırlana bilər. Yerləşdiyi ərazidəki məktəbdə rəssamlığa, memarlığa maraq göstərən şagirdlərin rəssamlıq, memarlıq qabilliyyətlərini aşkara çıxarmaq və maraqlarını təmin etmək üçün ədibin əsərlərinə çəkiləcək ən yaxşı illüstrasiyalar, hazırlanacaq maketlər üçün müsabiqə elan edilə bilər. Müəllifin həyat və yaradıcılığına aid tərtib edilmiş maraqlı ədəbi viktorinanın da ssenariyə əlavə edilməsi məqsədəuyğun olardı. Sənətkarın dram əsəri varsa, kitabxanaçı şagirdlərin ifasında tamaşa üçün səhnəcik hazırlamalı, yazıçının belə bir əsəri yoxdursa, onun hekayə, povest, yaxud romanından bir parçanın səhnələşdirilməsini nəzərdə tutmalıdır. Gecələrin keçirilməsində proyektorlardan, dekorasiya, aktyor geyimləri, audiovizual materiallardan məharətlə istifadə edilməlidir. Ədəbi-bədii gecələr aşağıdakı estetik tələblərə cavab verməlidir: Musiqi və poeziyanın vəhdəti nümayiş etdirilməli; - Sənət əsərinin ifaçılarına, natiqlərin nitqinə, aparıcıların- çıxışına yüksək tələbkarlıqla yanaşılmalı; poetik parçalar həm ideya-siyasi, həm də emosionallıq- cəhətdən

kamil olmalı; emosionallığı artırmaq üçün video görüntülərdən,-dekorasiya, aktyor geyimlərindən istifadə edilməli; müəyyən mövzu ilə əlaqədar şagirdlər tərəfindən çəkilmiş illüstrasiyalar, portretlər, hazırlanmış maketlər, albomlar, stend və sərgi materialları yüksək zövq meyarı ilə qiymətləndirilməli və seçilməlidir.

## Ədəbi-bədii gecə

**I aparıcı:** Əziz uşaqlar, hörmətli qonaqlar. Bu gün bura Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, uşaqların sevimli şairəsi, nəğmələri dillər əzbəri olan Xanımana Əlibəylini xatırlamaq üçün yığışmışıq. Axı, onun bu il 100 illik yubileyi qeyd olunur.

**II aparıcı:** *"Qızılavar kəndi", "İlk xəstə qəbulu", "Kolxoz sədri Mahmud", "Soldat bazarı", "Azacıq para"* şeirlərini Masallıda işləyərkən yazır. "Əziz komisar" kitabı 1980-ci ildə çap olunur, Gülər Abdullabəylinin sözlərinə istinadən deyə bilərik ki, Xanımana Əlibəyli bu kitabını 1969-1982-ci illərdə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində çalışan Heydər Əliyevə həsr etmişdir. Xanımana Əlibəyli 100-dən artıq uşaq şeirinin, 10-dan artıq uşaq poemasının və pyesinin müəllifidir. Onun 30-dan artıq kitabı çap olunmuşdur. 1991-ci ildə Əməkdar incəsənət xadimi adı verilmişdir. 1994-cü ildə Azərbaycan Xalq şairi, Azərbaycan yazıçılar birliyinin sədri Anar Azərbaycan respublikasının Baş Nazirinin müavini E.Əfəndiyevə Xanımana Əlibəyliyə Xalq şairi adı verilməsi üçün müraciət ünvanlamışdır. 1999-cu ildə Ümummilli liderimiz Heydər Əliyev tərəfindən Xanımana Əlibəyliyə Prezident təqaüdü təyin edilmişdir. Azərbaycan Yazıçı Qadınlar Cəmiyyəti tərəfindən 2006-cı ildə Xanımana Əlibəyli "Mirvarid Dilbazi" adına mükafata layiq görülmüşdür. 7 may 2007-ci ildə Xanımana Əlibəyli 87 yaşında uzun sürən qaraciyər- böyrək çatışmazlığından vəfat etmişdir.

**I aparıcı:** Ağlımız kəsəndən Xanımana Əlibəylini uşaq yazıçısı kimi tanımışıq. Orta məktəbin aşağı siniflərində oxuyanda

dərsliklərdə şeirlərini əzbərləmişik "Dovşanın ad günü", "Meşə həkimi", "Novruz və Murtuz", "Yaz konserti", "İşləməyən dişləməz", "Uşaq mahnıları" kitablarını sevə-sevə oxumuşuq. Elə o zaman hiss etmişik ki, Xanımana Əlibəyli Azərbaycanda yaşayan hər bir uşağın qəlbinə belə hakim kəsilən sənətkardır.

**II aparıcı:** Xanımana Əlibəyli uşaq ədəbiyyatımızın ləyaqətli davamçılarından olub Mirzə Ələkbər Sabir, Abbas Səhhət... kimi yazıçı və şairlərimiz sırasındadır. Xanımana Əlibəylinin əsərləri, uşaqlarda vətənə məhəbbət, insan əməyinə və istedadına ehtiram, təbiət gözəlliklərinə vurğunluq, ataya, anaya, müəllimə, ümumiyyətlə, böyüklərə hörmət, özündən kiçiklərə şəfqət, mehribanlıq, dostluqda dəyanət, kamil insan üçün yabancı olub onun şəninə, ləyaqətinə kəsir gətirən eybəcər hallara nifrət kimi çox gərəkli duyğular aşılayır.

**I aparıcı:** Şairənin qızı, f.e.d. Gülər xanım Abdullabəyova anasının yaradıcılığı haqqında danışarkən onun tək uşaq şeirləri yox, sevgi şeirləri də yazdığını qeyd edirdi. O deyirdi: “Onun atama həsr etdiyi məhəbbət şeirləri olduqca maraqlı və gözəl idi. Düşünürəm ki, anam lirik şeirlər yazan şairə ola bilərdi. Amma o məhz uşaq ədəbiyyatını seçdi. Çünki uşaq ədəbiyyatında olan boşluq onu çox narahat edirdi. İstəmirdi ki, o, təkcə uşaq şairəsi kimi tanınsın. Şeirlər yaza-yaza həm də uşaq həkimi vəzifəsində çalışırdı. Çünki uşaqlara olan sevgisi sonsuz idi. Lakin 45-50 yaşlarında təqaüdə çıxaraq sırf poeziya ilə məşğul olmağa başladı. Daha həkim işləmədi. Bəlkə də, bu sənətini həddindən artıq sevdiyindən irəli gəlirdi ki, o, səhhətində problem olsa da, yaradıcılığına fasilə vermirdi. Anam 85 yaşında dünyasını dəyişdi. Bir şeirində kuklaları xəstələnən qızcığazın həvəslə onları müalicə etməsi qızcığazın həkim anasının xəstələnəndə ona göstərdiyi qayğı və şəfqətin nəticəsidir.

Sağ qoluma bağladım
Tez aypara nişanı.
Yavaşca qucaqladım
Atı, fili, dovşanı –

Qoydum divanın üstə.
Uzandı çoxlu xəstə:
Keçi, dəvə, qaz, toyuq...
Çoxuna dəyib soyuq.

Bu gün anam həyatda olmasa da unudulmur, xalqının, onu sevən azyaşlıların, sənət yoldaşlarının qəlbində əbədi yaşayır ”. Bu, həqiqətən də belədir.

***“Gözəllər gözəli”*** pyesindən bir parçada... Günəş çıxıb. Alma günəşin şəfəqlərində yuyuna-yuyuna şən bir nəğmə oxuyur.

Meyvəqurdu Alma, nədir tutmusan
Birdəfəlik kəsərəm
Günəşin qabağını?
Bu bağdan ayağını.
Alma: Meyvəqurdu, məni
Gətirmə zara,
Günəş mənimkidir
Çəkil kənara.
Günəşdən mən
Almalıyam işığı,
Bil ki, mənəm
Bağların yaraşığı
Bu dünyaya ən ləzzətli,
Payam mən,
Özüdə günəşə,
Aya tayam mən
(Meyvəqurdu öz –özünə deyinərək gözdən itir).
Yerlərin ayına bax...
Günəşin tayına bax...
Alça almanın özünü tərifləməsini eşidib deyir:
Meyvəqurdu düz deyir.
Mən lap məətəl qaldım
Eşidəndə sözünü.
Ay alma, boş yerə sən
Təriflədin özünü.

Atan “Al” yox
Alma qoyub adını.
Almasınlar,
Bilməsinlər dadını.
Heç alma dünyada
Alçaya çatmaz.
(bunu eşidən heyva budaqdan başını qaldırır)
Alça, tərifnamən
Həddini aşdı.
Səndəki turşudan
Dişim qamaşdı.
Mən Heyvayam,
Xoşlayırlar ətrimi.
İnsanlar hamıdan çox
İstəyirlər xətrimi.
*(Bu tərifnaməni eşidən əncir:)*
Heyva, danışdığın
Boş qalmaqaldır.
Mən Əncirəm
Dadım elə bil baldır.
Əncirin çox xeyri var
Oxşayıram o,
Saralan armuda.
**Armud:** Bir buna bax, özünü
Mənə tay etdi bu da.
Məclislərdə hamının
Ürəyinə yatıram
Mən bütün xəstələrin
İmdadına çatıram.
*(Bu an meyvəqurdu kənardan durub acı-acı baxır. Al rəngli nar gəlir.*
Armud, söylə sənə
Nə ehtiyac var?
O mənəm, xəstəyə

Məndə əlac var.
*(Meyvəqurdu yenə öz-özünə kənardan baxıb deyinir:Heç onu yoxdur dərən, Danışır çərən-pərən).*

*Nəhayət, bu söhbətdən sonra meyvələr belə qərara gəlirlər ki, sabah müsabiqə təşkil olunsun, bilinsin ki, hansı meyvə daha yeməlidir.*

*Bunu eşidən meyvəqurdu sevinərək aranı qarışdırmağa hazırlaşır.*

**Meyvəqurdu:** Meyvələr lovğadır çox,
Heç birində dostluq yox.
Danışdı hamı boş-boş,
Heç kəsə gəlmədi xoş.
Burda nə ki meyvə var,
Bir günə qırmaq olar.
*(Meyvəqurdu sağa-sola boylanır, alma olan budağa yaxınlaşır.)*
Salam, ay qızıl alma salam
Sənə vardır vacib sözüm.
Dünən axşam Narın özü,
Sənə yaman tələ qurdu
Nar möhkəm tapşırdı mənə,
Bir bərk ziyan vurum sənə.
**Alma:** Sən ziyan vurasan mənə?
M.q: İnan, əl vurmaram sənə.
Meyvəqurdu aranı çaxnaşdırmaq üçün sevincək narın yanına gəlir:
Salam sənə Gülövşə nar,
Qarşında bir, təhlükə var.
Almadır sənin qəddar düşmənin.
Nar: Sağ ol, xəbər verdin mənə.
Meyvəqurdu öz-özünə:
Saldıq sizi rəqabətə
Düşəcəksiz fəlakətə
Meyvəqurdu həşəratları çağırıb tapşırıq verir:
Xəbər tutdum olacaq

Sabah meyvə bayramı
Meyvələr yarışacaq
O saat bağa aşın
Meyvələrə daraşın

*Alça və Heyva göylərdə Meyvəqurdunun kölgəsini görüb:*

Göylərə bax ay Alça,
Uçur mavi bir xalça.
**Heyva:** Yox dağlara çöküb duman.
Düşmənlərdir o çox güman

(Meyvəqurdunun kələyindən xəbəri olan əncir Nara yaxınlaşıb qulağına)

**Əncir:** Ey Nar, bir qulaq as mənə,
Bir pis xəbər verim sənə.
Həşərat istəyir cuma
Üstümüzə hücuma.
**Nar:** Qorxma, kəsib yollarını,
Bağlayarıq qollarını.

*(Meyvəqurdu gözdən itir. Alma sabahkı bayramda üstünlük qazanmaq üçün çalışır, əynindəki zərli donuna sığal vurub hərlənir.)*

**Alma:** Eh, narın başında
Sınıq bir tac var.
Mənimsə suyumda
Min bir əlac var.
Ay göndərib mənə
Bu gözəl donu.
Sabahki bayramda
Geyinim onu.
Hamıdan qiymətli
Bir inci olum.
Meyvələr içində
Birinci olum.
Məclisə saat onda

Yola düşüm faytonda.
Heyva Almaya tənə ilə:
**Heyva:** Tərifə tutmusan yenə özünü,
Alma, saxla sabah söylə sözünü
Telləri töküb belə,
Çox da lovğalanma elə.
O gün, mənə sən demisən daş Heyva.
Sabah isə deyəcəksən baş Heyva.
Səhnədən hamı gedir. Yenidən Almanın nəğməsi
eşidilir. Nəğmə oxuya-oxuya yarışmaya tələsir.
**Almanın nəğməsi:** Uzanır yol boyu alma ağacı
Almalardır hər azarın əlacı
O, göylərdə sovqat gedir hər yana,
Bir nemətdir, həyat verir insana.
Almanın nəğməsindən qəzəblənən meyvəqurdu:
Qoy oxusun şirin sözlər
Bir-birinə calansın
Fayton aşsın, qızıl Alma
Xəndəyə yumbalansın

Almanın getdiyi fayton meyvəqurdunun diyirlədiyi daşa çırpılıb yerə dağılır. Alma yenidən durub yoluna davam edir. Uzaqdan narın gözəl nəğməsi eşidilir.

**Nar nəğməsi:** Gözəl meyvə var- var
Onun adı nar-nar
Səhnədə narın nəğməsinə hamı heyran qalır.
Mənim adım Nar-Nar,
Dadlı barım var-var
Mənim adım Nar-Nar,
Meyxoş meyvəm var-var
Payız fəsli gələndə,
Mən verirəm bar-bar.
Bunu eşidən Meyvəqurdu Nara söz atır.
Meyvəqurdu toxunsa,
Ağlayarsan zar- zar.

Bu sözdən sonra münsiflər heyəti olan Şaftalı Ərik Narı qovub Almanı çağırırlar səhnəyə. Alma nəğməsini söyləyir, rəqs edir:
Mən durna kimi süzüm,
Düşmən ürəyini üzüm.
Şaftalı və Ərik Almaya yüksək qiymət verirlər. Bunu görən Nar deyinir:
*(Nar, Heyva paxıllıqla Almanın rəqsinə tamaşa edirlər. Meyvəqurduların tələsindən xəbəri olan Əncir tövşiyə-tövşiyə məclisə girərək yoldaşlarını xəbərdar etməyə tələsir.)*
**Əncir:** Ay meyvələr,
Gəldim xəbər verim mən,
Aldatdı sizi düşmən.
Yaramaz Meyvəqurdu
Sizə bir tələ qurdu.
Meyvələr, qalmayın tək
Gəlin, gəlin birləşək!
Qoruyaq bir-birimizi.
Düşmən məhv etməsin bizi!
**I aparıcı:** Xanımana Əlibəylinin poemaları uşaqlara ibrət dərsi verən nümunələrdir. Onun "Məni günəşə at" kitabında toplanmış "Məni günəşə at", "Çoxbilmiş çəpişlər"," Anamın nəğməsi ", "Aman ovçu", "Mərcanqulu qalası", "Ulduzların qucağı", " Bir yaz səhəri " poemaları müasir baxış bucağından qələmə alınmışdır.
**II aparıcı:** Bu əsərlərin hər birində müəllif ağıllı tədbirli olmağı uşaqlara təlqin edir. Belə ki, "Çoxbilmiş çəpişlər" də ağıllı çəpişlərin vaxtında tədbir görməsi nəticəsində Qurd ocaqda yanır. Əziz uşaqlar, Xanımana Əlibəyli bununla demək istəyir ki, düşmən nə qədər güclü olsa da, ağlın gücü ilə onu məğlub etmək olar.
**I aparıcı:** Şairin "Anamın nəğməsi" şeirində " Çəpişlər "in əksi olaraq düşünülməmiş atılan addımın heç bir nəticə verməyəcəyi diqqətə çatdırılır. Yaxşı ki, toyuqların düşünülməmiş addımına "düzəliş" edilir. Ovçunun atdığı sərrast bir güllə tülkünün

arzularını ürəyində qoyur. Balaları yoxa çıxarkən kədərli mahnı oxuyan ana toyuq, şən nəğmələr oxumağa başlayır:
Gəlin həmin nəğməni dinləyək.

*(Oxucu şeiri demək üçün səhnəyə gəlir )*

Toyuqlarım gözəl-göyçək,
Hərəsi bir cürə çiçək.
Biri çil-çil, biri sarı,
İpək kimi qanadları,
Gəzin çöldə, gəzin düzdə,
Səpilmişdir önünüzdə.
Hər cürə dən, toyuqlarım,
A mənim şən toyuqlarım.

**II aparıcı:** Əsərlərindən gördüyümüz xalqına, Vətəninə, olan bu səmimi məhəbbətinə görədir ki, Vətən də şairinə belə qayğı göstərərək həmişə səmimi məhəbbət bəsləyib. Yetmiş il davam edən xalqına məhəbbətlə zəngin bir yaradıcılıq yolu keçmiş Xanımananın bütün əsərlərinin ən ali məqsədi yazdığı bu misrasından aydın görünür.

Heyranam hər çağına
Bağçasına, bağına.
Yıxılım ayağına,
Azərbaycanım mənim!

**I aparıcı:** Azərbaycanda uşaq yazıçısı kimi şöhrətlənən sənətkarlar az olmayıb. Bir neçə nəsil Abbas Səhhətin, Abdulla Şaiqin, Süleyman Sani Axundovun, daha sonralar Mir Mehdi Seyidzadənin, Mikayıl Rzaquluzadənin, Mirvarid Dilbazinin, Teymur Elçinin, Əzizə Əhmədovanın, Hikmət Ziyanın, İlyas Tapdığın, Məstan Günərin şeirləri ilə böyüyüb, boya-başa çatıb. Bu gün Xanımana Əlibəyli də o ustadların sırasında gedir. Ona görədir ki, 87 yaşında dünyasını dəyişən Xanımana Əlibəyli bu gün də unudulmur. Xalqının, onu sevən azyaşlıların, sənət yoldaşlarının qəlbində əbədi yaşayır.

## Ədəbiyyat siyahısı

Əlibəyli X. (1920-2007). Aman ovçu; Yuxuda; Qızıl şar: şeirlər// Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə. C.2. - B.: Öndər, 2004. - S. 178-184.

Uşaqların sevimli şairi : Xanımana Əlibəyli haqqında // Göy qurşağı. - 2007. - №3(8). - S.14-15.

Namazov Q. 1945-1960-cı illərdə uşaq ədəbiyyatı //Azərbaycan uşaq ədəbiyyatı. – Bakı Dövlət Universiteti nəşriyyatı, 2007. - III hissə: Sovet dövrü uşaq ədəbiyyatı, VI fəsil. - S. 272-284.

Namazov Q. Xanımana Əlibəyli (1923-2007) // Azərbaycan uşaq ədəbiyyatı. - Bakı Dövlət Universiteti nəşriyyatı, 2007. - III hissə: Sovet dövrü uşaq ədəbiyyatı, VII fəsil. - S. 332-336.

Nəbiyev B. Uşaq ədəbiyyatımızın xanım anası: Xanımana Əlibəyli // Ədəbiyyat qəzeti. - 2008. – 11 yanvar. - S. 3-4.

Eyvazov S. Uşaq məhəbbətini qazanmağın çətin yolu: Xanımana Əlibəylinin dramaturgiyası haqqında // Mədəniyyət. - 2011. - 20 aprel. - N 27. - S. 13.

Fərəcov S. Uşaqların şəfqətli ədibi: Xanımana Əlibəyli // Mədəniyyət. - 2013. - 19 aprel. - № 28. - S. 36

# Həkimlikdən uşaq ədəbiyyatına, Xanımana Əlibəyli

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 04
Çapa imzalanmışdır: 11.02.2020
Tirajı:100
Pulsuz